Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 23, 2022. 77-84
DOI: 10.30546/2616-4418.23.2022.77

# AZƏRBAYCAN ETNOQRAFİYASININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Sahib VƏLİYEV**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,*
*Bakı, Azərbaycan*

## Giriş

Müasir danışıq dillərində "xalq" adlanan etinik birliklər elmi ədəbiyyatda bir qayda olaraq "etnos" adı ilə tanınır. Etnoqrafiya anlayışı da məhiz bu sözlə əlaqədardir. Bu mənada etnoqrafiya dünya xalqlarının məişət və mədəniyyətindən, onların adət və ənənələrindən, etnik birliklərin yaranmasından və inkişafından, onların yayılması və qarşılıqlı mədəni əlaqələrindən bəs edən tarix elmidir. Xalqların etnik simasını yaradan səcyəvi, mənəvi, ənənəvi mədəniyyət və məişət xüsusiyyətlərinin öyrənilməsi etnoqrafiya elminin başlıca predmetidir. Müasir devrdə etnoqrafiyanın qarşısında duran başlıca problemlərə diqqət yetirəndə ayrı-ayrı ölkələrin, ha belə bütün dünya əhalisinin etnik tərkibinin öyrənilməsi, xalqların etnik tarixi və etnogenezi, nəsil-qəbilə qurluşunun, yəni sinifsiz cəmiyyətin

CC BY NC ND

öyrənilməsi, tarixdən formalaşan milli-mədəni ənənələrin öyrənilməsi, müasir etnik proseslərin tədqiqi və sairə problemləridir.(3. s. 11-12)

Etnoqrafik tədqiqatlar zamanı xalıqların təsərüfat həyatı, onların maddi və mənəvi mədəniyyəti, xalq sənətkarlıq formaları və sairə sahələr üzərində bilavəstə müşahidələr aparılması nəticəsində əldə edilən məlumatlardan bir mənbə kimi istifadə olunur. Zəruri materialların əldə edilməsi üçün çöl tədqiqatları zamanı stansionar və eksipedisiya metodlarından istifadə olunması, eyni zamanda, yazılı materialların da işə cəlb edilməsini tələb edir. Bununla belə muzey kolleksiyaları, arxiv sənədləri, foluklor materialları etnoqrofik tədqiqatlar zamanı başlıca mənbə rolunu oynadığından bunlar müasir faktlarla müqayisə edilərək xalqın məişə və mədəniyyətinin tarixi inkişaf mənzərəsini canlandırmaq üçün çox böyük əhəmiyyət kəsb edir.(Cəfərov, 1989, 13-14)

Etnoqrafik, arxeoloji və antropoloji araşdırmalar təsdiq edir ki, min illər bundan əvvəl Azərbaycanda yaşayan kuti, lullubi, turukki, kassi, su, naxçı, subar, skif və digər tayfalar Azərbaycan xalqının ulu əcdadları olmuşlar. Onların maddi və mənəvi dəyərləri bu gün də Azərbaycan xalqı içərisində yaşamaqda davam edir.(1,1998, s. 31-32)

Etnoqafiyanın xarakterik cəhətlərindən biri də tədqiq olunan məsələyə kompleks şəkildə yanaşma üsulundan ibarətdir. Ona görə də etnoqrafiya bir çox yaxın elim sahələri ilə, o cümlədən iptidai icma və arxealogiya ilə, antropologiya və mədəniyyət tarixi ilə, sənətşünaslıq və foluklorşünaslıqla, dilçiliklə, coğrafiya və demoqrafiya ilə sıx surətdə əlaqədardır.

Burada onu da qeyd etmək oar ki, Arxeoloji tədqiqatlar və qazıntılar zamanı aşkar edilmiş əşyalar bunları təsdiq edən adət və ənənələr Azərbaycanın maddi-mədəniyyət tarixini öyrənməyə imkan vermişdir. Tarixi qaynaqlar və ekspedisyalar zamanı toplanan etnoqrafik materiallar əsasında adət-ənənələr, yaşayış yerləri və formaları, maddi-mənəvi mədəniyyət, keçmiş idarə formaları, ailə münasibətləri, yaşayış tərizləri və sairə öyrənilir.(2,1988, s. 46-47)

## Etnoqrafiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi

XVIII əsrin sonlarından və XIX əsrin əvvəllərindən etibarən demək olar ki, Qərbi Avropa və Amerika ölkələrində təşəkkül tapmağa başlayan etnoqrafiya elmi Azərbaycan ərazisində olduğu kimi yaxın qonşumuz olan Rusiya dövləti ərazisində də 1845-ci ildə "Rus coğrafi cəmiyyəti"nin yaranmasından sonra böyük vüsətlə inkişaf etməyə başladı. Bu cəmiyyətin nəzdində etnoqrafiya bolməsi fəaliyyət göstərirdi. Bölmənin əməkdaşları Rusiyanın ucqarlarında bunun kimi də Azərbaycanın ucqarlarında yaşayan xalqların etnoqrafiyasının öyrənilməsinə də böyük əhəmiyyət

verilirdi. Bu məqsədlə 1851-ci ildə "Rus coğrafi cəmiyyəti"nin Qafqaz şöbəsi yaradılmışdır. Şöbənin başlıca vəzifəsi Qafqaz xalqlarının etnoqrafiyasına dair materiallar toplayıb və dövrü orqanlarda (1952-ci ildən Zapiski KORQO, 1972-ci idən İzvestiya KORQO jurnallarında) nəşr etməkdən ibarət idi.( Həvilov,1981, s. 9-10)

Azərbaycanda da etnoqrafik məlumatların elmi şəkildə toplanması elmi işinə əsasən XIX əsrdən başlanılmışdır. Lakin etnoqrafik biliklərin əldə edilməsinin başlanğıcı qədim və orta əsrlər dövrünə aid edilir. Belə ki, hələ antik müəlliflərin (Strabon, Plini, Klavdi Elian) əsərlərində Azərbaycan ərazisində yaşayan tayfalar, onların təsərüffat məşğuliyyəti, maddi və mənəvi mədəniyyəti haqqında məlumata rast gəlinir. Orta əsrlər dövründə xalqmızın böyük mütəfəkkir oğulları tərəfindən yaradılan ədəbi-bədi əsərlərdə, qəhramanlıq və məhəbbət tastanlarında Azərbaycan xalqının etnoqrafiyasına müfəssəl məlumatlar vardır. Azərbaycanda olmuş bir çox Yaxın Şərq və Avropa ölkələri səyyahları, ha belə rus müəllifləri yerli əhalinin həyat tərzi ilə yaxından tanış olaraq, onların təsərüfatı, maddi və mənəvi mədə-niyyəti, adət-ənənələri, ailə-nigah münasibətləri barədə maraqlı məlumatlar topla-mış¬dılar. XIX əsrin əvvəllərinə qədər davam edən bu dövr Azərbaycanda etno¬qra-fik biliklərin toplanmasının ilkin mərhələsi sayılır.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra Azər¬baycan etnoqrafiyasının inkişaf tarixində yeni, ikinci mərhələ başladı. Bu mərhələ 1870-ci ilə qədər - Azərbaycanda aqrar islahatın keçirilməsinə qədər olan dövrü əhatə edir. Azərbaycanın Rusiyaya birləşdirilməsi yerli əhalinin ictimai-iqtisadi və mənəvi həyatında əhəmiyyətli bir dəyişikilik əmələ gətirmədi. Lakin bu birləşdirmə mərkəzin mənafeyi baxımından Azərbaycan etnoqrafiyasının daha geniş və müntəzəm yolla öyrənilməsi üçün əhəmiyyətli şərait yaratmış oldu. Çarizmin müstəmləkəçilik mənafeyi çar məmurlarının idareçiliyi altında olan əhalinin iqtisadiyyatına, adət-ənənəsinə, mədəniyyətinə dərindən bələd olmağı tələb edirdi. Buna görə də, XIX əsrin birinci rübündən Azərbaycan tarixinə, onun etnoqrafiyası və mədəniyyətinə maraq olduqca yüksəlmişdi. Təsadüfü deyli ki, bu rübün Qafqazda çıxan dövrü mətbuatında ("Tiflisskie vedomosti" 1828-1832 və "Zakavkazskiy vestink", 1837-1856) Azərbaycan etnoqrafiyasına dair çoxlu materiallar dərc olunmuşdur. 1846-cı ildən fəaliyyətə başlayan və 1917-ci ilə qədər davam edən "Qafqaz" qəzetinin də bu səhifədə xidməti az olmamışdır. Qəzetin səhifələrində Qafqazın azərbaycanlıların yaşadıqları digər vilayətləri ilə yanaşı, Azərbaycana aid də müxtəlif məlumatlar dərc olunurdu. (Mənsurov,2007, s. 11-12)

## Etnoqrafik dəyərlərin tədqiqi

Göstərilən tarixi mərhələdə Azərbaycanı öyrənməklə məşğul olan müəlliflərdən V.N. Qriqoryevi, P.P, Zubovu, O.S. Yevetskinin, ha belə Oborzenyenin

mü¬əlliflərindən V.S. Qeqkoburovu, D.Y. Zubaryevi, A.Q. Yanovskini göstərmək olar. V.N. Qrqoriyev 1833-cü ildə "Statistiçeskoye opisanye Naxçvansikoy provintsii" əsərini, P.P. Zubov 1835-ci ildə iri həcimli "Kartina Kavkazkoqo kraya" kitabını yazmışdır. Kitabın dördüncü hissəsində müəllif Şəki, Quba, Şirvan, Bakı və Talış əyalətlərinin hərtərəfli etnoqrafik təsvirini verir.( Nəsirli,1964, s. 17-18)

O.S. Yevetskinin "Statistiçeskoye opisanye Zakavkazkoqo kray" əsəri rəsmi sənətlər, arxiv və ədəbi materiallar əsasında yazılmaqla təxminən Zubovun yuxarıda göstərilən əsəri ilə eyni məzmunludur. Burada da müəllif yerli əhalinin maddi mədəniyyətindən, təsərüfat və ticarətindən məlumat verir.( Nəsirli,1964, s. 31-32)

Azərbaycana həsr olunan əsərlər içərisində yuxarıda adları çəkilən müəlliflər kollektivi tərəfindən yazılmış "Obozrenie"nin xüsusi əhəmiyyəti vardır. Əsərin üçüncü və qismən dördüncü hissələri demək olar ki, bütünlüklə Azərbaycan etnoqrafiyasının təsvirinə həsr olunmuşdur. Əsərin müəllifləri etnoqrafik bölmələri yazarkən bilavastə öz topladıqları çöl materiallarına arxalanmışlar. Odur ki, bu materiallar öz elmi düzgünlüyünə və dəqiqliyinə görə diqqəti cəlb edir.

Burada onu da qeyd edə bilərəm ki, XIX əsrin 40-60-cı illərində bir sıra əsərlər meydana çıxır ki, bunlar bilavəstə Zaqafqaziya xalqının təsərüfüt məişətinin xarakteriskasına həsr olunmuşdur. Bunlara misal olaraq Peterburq EA-sinin müx¬bir üzvü Y.A. Qaqemeystrin azərbaycan adət və ənənələrlə bağlı olan fikirlərini və əsərlərini göstərmək olar. (Osmanov,1982, s. 33-34)

Bu dövrdə əsas səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarətdir ki, mətbuat sə¬hifələrində az-çox dərəcədə Azərbaycanların öz imzasına da rast gəlinir. İlk növbə¬də biz məşur azərbaycan tarixcisi A.A.Bakıxanovun, böyük dramaturuq və filosof M.F.Axundovun, Mirzə Kazım bəy və M.M.Cəfiyevin adlarını çəkə bilərik.

## Nəticə

Göründüyü kimi Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixi etnoqrafiya baxımından tədrici inkişaf prosesə keçərək özünün profisenal səviyyəsinə kimi yüksəlmişdir. Bu inkişaf Sovet hakimiyyəti illərində çiçəklənmiş və daha da təkmilləşmişdir. Onu da qeyd edim ki, müasir dövrdə Sovet etnoqrafiyası tərəfindən etnososioloji problemlərin başlıca tədqiqat obyekti kimi qəbul edilməsi etnoqrafiya elminin özəyini təşkil edən ənənəvi məişət mədəniyyətinin, ailə-nigah münasibətlərini öyrənilməsinə ildən ilə maraq daha da artır. Bunu nəzərə alaraq təqdim edilən müstəqillik dövrümüzün də tədqiqatını dərslik və dərs vəsaitləri vastəsi ilə xalqmıza və ali məktəm tələbələrinə də çatdıqmaq məqsədyönlü olardı. Xalqımız müstəqillik əldə etdikdən sonra etnoqrafiya eliminin daha da təşəkkül tapması üçün tədqiqatlarını və axtarışlarını daha da genişləndirmişlər. Burada bir çox

alimlərimiz, tarixçilərimiz, arxeoloqlarımız və antropologiya ilə məşğul olan tədqiqatçılarımız Azərbaycan xalqının tarixi etnoqrafiyasının ümumiləşdirilmiş mənzərəsinin yaradılmasına ilk təşəbbüs göstərilməsini də qeyd edə bilərik.

Burada Azərbaycan etnoqrafiyasının predmetinə məxsus bütün sahələr-azərbaycanlıların etnogenezi, əkinçilik və maldarlıq, ovçuluq, ev peşəsi və sənətkarlıq, yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, nəqilyat vastələri, nigah və ailə, nəhayət, mənəvi mədəniyyət haqqında ümumiləşdirilmiş fikirləri də qeyd edə bilərik.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə:**

**E-mail:** s.valiyev70@gmail.com

## Ədəbiyyat:


Azərbaycan tarixi: 7 cikiddə, I c., Bakı; “Elm”, 1998. 520 s
Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1988, 211 s.
Azərbaycan Sovet ensiklopediyası, IV cikiddə 468 s.
Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1989. 157 s
Həvilov H.A. İnsan, məişət, mədəniyyət. Bakı, 1981, 165, s.
Mənsurov M.M. Ceyrançölundə ilk paleolit tapıntıları. “Azərbaycan arxeologiyası və etnoqrafiyası” jurnalı, Bakı; “Şərq-Qərb”, 2007, № 1.səh.17-23
Nəsirli M.N. Azərbycanın bəzi içkiləri haqqında AEM, I bur Bakı, 1964, 168, s.
Osmanov F.A. Qafqaz albaniyasının maddi mədəniyyəti. Bakı, Elm, 1982, 213, s.


**Məqaləyə istinad:** Sahib Vəliyev. Azərbaycan etnoqrafiyasının inkişaf mərhələləri. Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 23, 2022. Səh.77-84. DOI:10.30546/2616-4418.23.2022.77

# SUMMARY


## Stages of development of Azerbaijani ethnography


**Sahib Valiyev**
*Azerbaijan State University of Culture and Arts,Baku, Azerbaijan*

The stages of development of Azerbaijani ethnography are the process of thinking necessary for the understanding of ethnographic science. The formation and development stages of ethnographic science are one of the main directions of ethnography.

Ethnographic,, archeological and anthropological research confirms that thousands of years ago the Kuti, Lullubi, Turukki, Kassi, Su, Nakhchivan, Subar, Scythian and other tribes living in Azerbaijan were the great ancestors of the Azerbaijani people. Their material and moral values continue to live among the people of Azerbaijan today.

Ethnographic and anthropological materials - samples obtained during excavations and human skulls are very important for the study of ethnogenesis. Written sources are of special scientific importance. They study political events in Azerbaijan, state laws, economy, economy, crafts, professions, historical figures, military history, people's movements, religious images, etc. allows you to learn.

***Keywords:*** Our spirituality, culture, national and spiritual values, crafts, professions, religious images, ideology, history, and archeology

## РЕЗЮМЕ


### Этапы развития Азербайджанской этнографии



**Сахиб Велиев**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, Баку, Азербайджан*



Этапы развития азербайджанской этнографии представляют собой про-цесс мышления, необходимый для понимания этнографической науки. Этапы становления и развития этнографической науки являются одним из основных направлений этнографии.

Этнографические, археологические и антропологические исследования подтверждают, что тысячи лет назад жившие в Азербайджане племена кути, лулуби, турукки, касси, су, нахчываны, субар, скифы и другие племена были великими предками азербайджанского народа. Их материальные и нравственные ценности продолжают жить среди азербайджанского народа и сегодня.

Большое значение для изучения этногенеза имеют этнографические и антропологические материалы – образцы, полученные при раскопках, и человеческие черепа. Особое научное значение имеют письменные источники. Они изучают политические события в Азербайджане, государственные законы, экономику, экономику, ремесла, профессии, исторических деятелей, военную историю, народные движения, религиозные образы и т.д. позволяет учиться.



***Ключевые слова:*** Наша духовность, культура, национальные и духов¬ные ценности, ремесла, профессии, религиозные образы, идеология, история и археология